*Azərbaycanın böyük gələcəyi var. Gələcək nəsillər haqqında düşünməliyik. Azərbaycanın gəncləri, gənc nəsli, milli ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 30 yanvar 2016-cı il | № 8 (2023) | Qiymәti 25 qəpik


## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Almaniya Federal Statistika İdarəsinin prezidenti Diter Sarrayteri və Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarskini qəbul edib.***

***Bütün sahələrdə işlərin planlaşdırılmasında, iqtisadi inkişafa nail olunmasında dəqiq statistikanın rolunu xüsusi vurğulayan Prezident İlham Əliyev ölkəmizin statistika sistemində islahatların aparılmasının önəmindən danışaraq bu baxımdan Tvinninq layihəsinin uğurla həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xəlil İbrahim Akçanı qəbul edib.***

***Görüşdə Azərbaycan ilə İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓Yanvarın 29-da Prezident İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşüb.***

***Bir neçə gündən sonra Birinci Gənclər Forumunun 20-ci ildönümünün qeyd olunacağını deyən Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə keçirilən ilk Forumun Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadığını diqqətə çatdırdı. Azərbaycanın müstəqillik tarixindən danışan dövlətimizin başçısı ilk illərin ölkəmiz və xalqımız üçün ağır keçdiyini, Azərbaycana qarşı ermənilərin torpaq iddiaları ilə çıxış etdiyini, sovet rəhbərliyinin Bakıda cinayət törədərək günahsız insanları qətlə yetirdiyini dedi. Prezident İlham Əliyev bildirdi ki, məhz o dövrdə Heydər Əliyev Moskvada sovet rəhbərliyinin cinayətkar əməllərini pislədi. Bu, nadir hadisə olmaqla Heydər Əliyevin cəsarətli addımı idi. Sonradan ulu öndərin Bakıya, buradan da Naxçıvana getməsi muxtar respublikanı ermənilərin işğalçılıq siyasətindən xilas etdi. "Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır", - deyən dövlətimizin başçısı əminliklə söylədi ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik.***

***"Biz Azərbaycanda güclü, özünəgüvənən dövlət qururuq və bu dövlət əbədi yaşamalıdır", - deyən Prezident İlham Əliyev son 20 ili inkişaf və sabitlik dövrü kimi xarakterizə etdi, Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasında təmsil olunduğunu, mühüm enerji layihələrini icra etdiyini, kosmik ölkəyə çevrildiyini, iqtisadi şaxələndirilmənin aparıldığını, elmin və təhsilin inkişafı ilə bağlı mühüm addımların atıldığını, güclü ordunun və güclü sosial siyasətin qurulduğunu diqqətə çatdırdı.***

**AZƏRTAC-ın materialları əsasında**

*2 Fevral - Gənclər Günüdür*

# "XXI əsr Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub yaratmaq, inkişaf etdirmək dövrüdür"

## Dövlət səviyyəsində qayğı Azərbaycan gəncliyinin qarşısında öz həqiqi potensialını gerçəkləşdirmək üçün böyük perspektivlər açıb



***Gənc nəsli hər bir xalqın gələcəyi adlandırır və millətin sabahının onlara məxsus olduğunu söyləyirlər. Bu gün tam əminliklə deyə bilərik ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda tərbiyə edilir və ölkəmizin tərəqqisi naminə həyatımızın müxtəlif sahələrində həvəslə fəaliyyət göstərir.***

Hələ Sovet dövründə ölkəmizə rəhbərlik etdiyi illərdə böyüməkdə olan nəslə daim öz qayğısını əsirgəməmiş, gənclərin təhsilinə, işlə təmin olunmasına, həyatda düzgün mövqe tutmasına yardım etmiş xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqillik illərində hakimiyyətə qayıtdıqdan sonra gənclər siyasəti ilə bağlı bir cox fərman və sərəncamlar imzalayıb, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə həmişə önəm verib.

Azərbaycanın taleyini və gələcəyini fikirləşən dövlət başçısı gənclərin problem və qayğıları ilə ardıcıl məşğul olmaq məqsədilə 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Lazımi hazırlıq işləri aparıldıqdan sonra 1996-cı il fevralın 2-də ölkə gənclərinin həyatında mühüm hadisəyə çevrilmiş I forum keçirildi. Gənclərin I forumunun yekunları əsasında geniş tədbirlər planı hazırlandı, gənclərlə bağlı siyasətin əsas istiqamətlərindən biri kimi böyüməkdə olan nəslin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi qarşıya vəzifə qoyuldu.

1997-ci il fevralın 1-də, yəni Azərbaycan gənclərinin I forumunun ildönümü ərəfəsində dövlət başçısı Heydər Əliyev 2 fevralın ölkəmizdə Gənclər Günü elan edilməsi haqqında fərman imzaladı. Həmin vaxtdan Azərbaycan gəncliyi bu günü öz bayramı kimi qeyd edir.

Azərbaycan gənclərinin 1999-cu ilin martında keçirilmiş II forumunda iştirak edən dövlət başçısının müdrikliklə söylədiyi fikirlər uzun müddət yaddaşlardan silinməyəcək. Heydər Əliyev o zaman ölkə gəncliyinə dövlətçilik naminə öz xeyir-duasını bu sözlərlə bildirmişdi: "Biz XXI əsrə doğru gedirik. XXI əsr gənclərin əsridir. XXI əsr Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub yaratmaq, inkişaf etdirmək dövrüdür. Əziz gənclər, siz Azərbaycanın XXI əsrinin qurucularısınız. Bu yolda sizə uğurlar olsun, eşq olsun!"

Böyük öndərin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2005-ci ildə "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nı (2005-2009-cu illər) imzaladı. Proqrama gənclər arasında zərərli vərdişlərin profilaktikası, gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, onların vətənpərvərlik ruhunda tərbiyəsi, təhsili, kütləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı üçün şəraitin yaradılması kimi vəzifələr daxil edilmişdi.

2011-ci ildə Prezident İlham Əliyev "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında sərəncam imzaladı. Bu dövlət əhəmiyyətli sənədin də əsas məqsədi ölkəmizdə gənclər siyasətini daha da inkişaf etdirmək, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etmək idi.

Gənclər siyasətini dövlətin fəaliyyətində prioritet istiqamətlərdən hesab edən Azərbaycan Prezidenti İlham Əliyev ötən il yanvarın 26-da daha bir vacib sənəd - "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi ilə bağlı sərəncam imzaladı. Azərbaycan gəncliyinin inkişafı ilə bağlı bu dövlət əhəmiyyətli sənədin başlıca məqsədi Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək və yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır.

Dövlət səviyyəsində bu qədər qayğı göstərilməsi Azərbaycan gəncliyinin qarşısında öz həqiqi potensialını xalqımızın tərəqqisi naminə gerçəkləşdirmək üçün böyük perspektivlər açdı. Ötən müddət ərzində gənclərimiz öz əməllərilə sübut etmişlər ki, onlar ölkəmizin inkişafını təmin etməyə qadirdirlər. İndiyədək iqtisadi, siyasi, mədəni və sosial sahələrdə əldə edilmiş nailiyyətlərdə gənclərimizin payı çoxdur.

Azərbaycan Prezidenti İlham Əliyev gənclərin ölkəmizdə aparıcı qüvvə olduğunu çıxışlarının birində belə ifadə edib: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Azərbaycan övladlarının nəyə qadir olduğunu göstərən sahələrdən biri idmandır. Dövlət başçımız hələ illər öncə Milli Olimpiya Komitəsinə rəhbərlik etdikdən sonra idmana diqqət və qayğı dövlətin prioritet sahələrindən oldu.

Ölkəmizin şəhər və rayonlarında müasir tələblərə cavab verən və gənclərin idmanla məşğul olması üçün hərtərəfli idman kompleksləri yaradılmağa başladı. Hazırda ölkəmizin elə rayonu olmaz ki, orada müasir Olimpiya kompleksi tikilib gənclərin ixtiyarına verilməsin. Bütün bunlar isə ölkəmizdə kütləvi idman hərəkatının, gənclər arasında sağlam həyat tərzinin genişlənməsinə səbəb oldu.

Azərbaycan pəhləvan və atletləri beynəlxalq arenalardan qələbələrlə qayıtdılar və gənclərimizin göstərdiyi nəticələr ilbəil yüksəldi. İdmançılarımızın qələbə sorağı Olimpiya oyunlarından, dünya və Avropa çempionatlarından, beynəlxalq turnirlərdən gəldi.

Sidney şəhərində keçirilən Olimpiya Oyunlarında idmançılarımız 3, Afinada 5, Pekində 7, Londonda 10 medal qazandılar. Rəqəmlərdən də göründüyü kimi, bu artım tempi hər dörd ildən bir yüksələn xətlə inkişaf edib.

Azərbaycan 2015-ci ildə idman sahəsində ən böyük uğuruna imza atıb. İdmançılarımız il ərzində beynəlxalq yarışlarda - dünya və Avropa çempionatları və kubok yarışlarında 321 qızıl, 222 gümüş və 280 bürünc, ümumilikdə isə 823 medala yiyələniblər. Ölkəmizdə keçirilmiş və Avropanın 50 ölkəsindən gəlmiş idmançıların iştirak etdiyi I Avropa Oyunlarında Azərbaycan 21-i qızıl, 15-i gümüş və 20-si bürünc olmaqla 56 medal qazandı, Rusiyadan sonra 2-ci yeri tutmaqla rekord nəticə göstərdi. Bu tarixi nailiyyət hər bir vətənsevər azərbaycanlının qəlbini iftixar hissilə doldurdu.

Prezident İlham Əliyev Birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılarımızla, onların məşqçiləri ilə görüşündə dedi: "Mən 2003-cü ildə Prezident kimi fəaliyyətə təzə başlayanda demişdim ki, bizim əsas vəzifəmiz iqtisadi kapitalı, daha doğrusu, "qara qızıl"ı insan kapitalına çevirməkdir. Bugünkü gənclər, müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir. Doğrudan da, bizim gələcəyimiz etibarlı əllərdədir".

Dövlət rəhbərliyinin hərtərəfli qayğısından ruhlanan və həyatımızın bütün sahələrində cəsarətlə öz bacarığını nümayiş etdirən gənclərimiz bu gün həm də ən taleyüklü məsələ kimi Azərbaycanın müdafiəsini öz güclü çiyinlərində şərəflə daşıyırlar. Onların böyük bir hissəsi Silahlı Qüvvələrimizdə ləyaqətlə xidmət edir, döyüş qabiliyyətlərini gündən-günə möhkəmlədir, Ermənistan silahlı birləşmələrilə üzbəüz mövqelərdə gecə-gündüz ayıq-sayıq döyüş növbəsi aparırlar.

Ən başlıcası isə Azərbaycan Silahlı Qüvvələrində Vətəni candan sevən və onun yolunda fədakarlığa hazır olan gənc və peşəkar hərbi qulluqçular ordu sıralarında müqəddəs vəzifələrini ləyaqətlə yerinə yetirməkdədirlər.

**"Azərbaycan Ordusu"**

## General-polkovnik Zakir HƏSƏNOV:

# Əldə etdiyimiz uğurlar xalqımızın orduya olan inamından, Ali Baş Komandanın diqqət və qayğısından irəli gəlir

### Müdafiə naziri komandirlərin şəxsi heyətlə iş üzrə müavinləri ilə görüşüb

***Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə, qoşun qismləri və hərbi hissə komandirlərinin, xüsusi təyinatlı təhsil müəssisələri rəislərinin şəxsi heyətlə iş üzrə müavinləri, aidiyyəti üzrə kafedra rəisləri ilə keçirilən təlim-metodiki toplantısında Müdafiə naziri general-polkovnik Zakir Həsənov iştirak edib.***



Müdafiə naziri döyüş və mənəvi-psixoloji hazırlıq işinin hazırkı vəziyyəti ilə bağlı ətraflı təhlil aparıb, bu sahədə tədbirlərin daha da yüksək səviyyədə təşkili, hərbi qulluqçuların milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi, müasir silah və texnikanı dərindən bilməsi və bir çox məsələlərlə bağlı fikirlərini toplantı iştirakçılarının diqqətinə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunduğunu xüsusi vurğulayan nazir bu istiqamətdə Silahlı Qüvvələrin üzərinə düşən vəzifələri qeyd edib.

Müdafiə naziri, eyni zamanda Silahlı Qüvvələrdə aparılan islahatlar, Ali Baş Komandanın diqqət və qayğısı sayəsində xeyli sayda yeni hərbi şəhərciklərin açılması, ordu təchizatına müasir döyüş texnikası, silah-sursat və yeni avadanlığın daxil edilməsi barədə məlumatı da diqqətə çatdırıb.

Aparılan islahatların bundan sonra da davam etdiriləcəyini vurğulayan nazir cari ilin birinci yarısında bəzi hərbi şəhərciklərdə tikinti işlərinin sona çatdırılacağını, eləcə də cəbhəboyu zonada tam təminatlı yeni hərbi hissələrin açılacağını da bildirib.

"Xidməti mənzillərlə yanaşı, ilin sonunadək daha 500-dək daimi mənzilin hərbi qulluqçuların istifadəsinə verilməsi nəzərdə tutulub. Silahlı Qüvvələrin istifadəsinə ən müasir texnika və silah-sursatın verilməsi prosesi də davam etdiriləcəkdir. Silahlı Qüvvələrimiz düşmən ordusundan qat-qat üstün olduğunu döyüş meydanında bir daha sübut etdi. Düşmən xeyli itki verib. Nə qədər ki, torpaqlarımız işğal altındadır, düşmənə daha da sarsıdıcı zərbələr endiriləcəkdir. Əldə etdiyimiz uğurlar xalqımızın orduya olan inamından, Ali Baş Komandanın diqqət və qayğısından irəli gəlir", - deyə Müdafiə naziri əlavə edib.

Sonda general-polkovnik Zakir Həsənov döyüş və mənəvi-psixoloji hazırlıq işinin daha da gücləndirilməsi ilə bağlı konkret tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto çavuş Vüsal HƏMİDOVUNDUR**

# Macarıstanlı deputat AŞPA-da Ermənistanı işğalçılıqda ittiham etdi

Avropa Şurası Parlament Assambleyasının qış sessiyası çərçivəsində Azərbaycanla bağlı məruzələrin müzakirəsi zamanı Macarıstanı AŞPA-da təmsil edən Daha Yaxşı Macarıstan Uğrunda - Yobbik partiyasının sədr müavini Marton Cöncöşi ölkəmizin haqlı mövqeyini dəstəkləyən bəyanatla çıxış edib.

M.Cöncöşi Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağda və ətraf rayonlarda həyata keçirilən işğalçılıq siyasətindən, dinc əhaliyə qarşı vəhşiliklərdən danışıb, münaqişə nəticəsində Azərbaycanın böyük ərazi itkisinə məruz qaldığını və humanitar fəlakətlə üzləşdiyini bildirib. O, Azərbaycanın 30 minə yaxın vətəndaşını itirdiyini, on minlərlə insanın yaralandığını və 1 milyon azərbaycanlının qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olduğunu qeyd edib. Macarıstanlı deputat münaqişənin həlli üçün ATƏT-in Minsk Qrupunun fəaliyyətini, BMT və AŞPA-nın qətnamələrini xatırladaraq Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində bütün sənədlərin kağız üzərində qaldığını, beynəlxalq sülh və təhlükəsizliyi təhdid edən münaqişədən hələ də ən çox əziyyət çəkən tərəfin Azərbaycan olduğunu bildirib.

AŞPA-nın münaqişənin həlli məsələsinə müdaxiləsini məqsədəuyğun saymayan həmkarlarını qınadığını və onları başa düşməkdə çətinlik çəkdiyini deyən M.Cöncöşi insan hüquqlarının kütləvi şəkildə pozulması, qanlı münaqişələr və humanitar fəlakətlərlə bağlı Assambleyanın mövqe nümayiş etdirməsinin təşkilatın əsas hədəfi olduğunu bildirib və sadaladığı halların hər birinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində müşahidə edildiyini diqqətə çatdırıb.

Daha sonra BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini, AŞPA-nın 1416 və 1614 saylı qətnamələrini, həmçinin 2010-cu ildə NATO və Avropa Parlamenti tərəfindən qəbul edilmiş sənədləri xatırladan M.Cöncöşi bütün bu sənədlərdə Azərbaycan torpaqlarının işğalı faktının öz təsdiqini tapdığını qeyd edib. Çıxışının sonunda deputat belə qətnamələrin qəbulu ilə bir sırada onların icra mexanizminin işlənib hazırlanmasının zəruriliyini vurğulayıb və bu məqsədlə sanksiyaların tətbiqi məsələsinin də nəzərdən keçirilməsini təklif edib.

**AZƏRTAC**

# Silahlı Qüvvələrdə döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi başlıca şərtdir

### Şəxsi heyətlə iş üzrə komandir müavinlərinin toplantısı keçirilib

***Birlik, birləşmə və hərbi hissə komandirlərinin, xüsusi təyinatlı təhsil müəssisələri rəislərinin şəxsi heyətlə iş üzrə müavinləri, aidiyyəti üzrə kafedra rəisləri ilə keçirilən təlim-metodiki toplantı başa çatıb.***



Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev növbəti günün proqramını elan etdikdən sonra polkovnik Abdulla Qurbani Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, 2015-ci ildə yerli icra hakimiyyəti orqanları, müvafiq dövlət və qeyri-hökumət təşkilatları ilə birgə həyata keçirilən tədbirlərdən və onların Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin yüksəldilməsində müstəsna rolundan danışıb.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışında Silahlı Qüvvələrin dövlətin əsaslarını təşkil edən mühüm təsisatlardan biri olduğunu, ölkənin təhlükəsizliyini və müdafiəsini təmin etdiyini vurğulayıb.

Hərbi kollektivlərin əsasən gənclərdən ibarət olduğunu diqqətə çatdıran professor Ə.Həsənov şəxsi heyətlə iş zamanı dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən daxili və xarici siyasətin əsas aspektlərinin operativ və dolğun şəkildə onlara çatdırılmasını xüsusi qeyd edib. Hərbi qulluqçuların mətin, iradəli, vətənsevər gənc kimi formalaşaraq ictimaiyyətə inteqrasiyasında hərbi xidmətin əvəzsiz rolundan, bu sahədə şəxsi heyətlə iş üzrə zabitlərin potensialından səmərəli istifadənin zəruriliyindən, əsgərlərin dünyagörüşünün milli-mənəvi dəyərlər əsasında formalaşdırılmasından, onlarda Azərbaycan dövlətçiliyinə, dövlətinə, xalqına və Ali Baş Komandanına sədaqət hisslərinin aşılanmasından və bütün bunların ordu quruculuğunda əhəmiyyətindən danışıb.



Qlobal maliyyə böhranı və kəskin geostrateji mübarizə şəraitində ölkəmizin mövcud sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti, Silahlı Qüvvələrə göstərilən dövlət qayğısı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, tolerantlığın ölkəmizdə həyat tərzi olması və bir sıra vacib mövzulara toxunan Ə.Həsənov toplantı iştirakçılarını maraqlandıran sualları da cavablandırıb.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının çıxışı da toplantı iştirakçıları tərəfindən maraqla qarşılanıb.

M.Qurbanlı Silahlı Qüvvələrimizdə həyata keçirilən uğurlu islahatlardan, hərbi, ideoloji işin təşkilində din amilinin rolundan danışaraq qeyd edib ki, Azərbaycan tolerant ölkə olmaqla bu gün dünyanın diqqət mərkəzindədir. Dövlətimizin başçısının 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi haqqında sərəncamı nəinki xalqımız, eləcə də dünyanın bir sıra ölkələri tərəfindən rəğbətlə qarşılanıb və ölkəmizin nüfuzunu daha da artırıb.

Sonda şəxsi heyətin suallarını cavablandıran Komitə sədri Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Silahlı Qüvvələrdə cari il üçün birgə tədbirlər planının da təsdiq edildiyini nəzərə çatdırıb və bu istiqamətdə tədbirlərin həyata keçirildiyini bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***28 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 130 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Ağdam rayonunun Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Mərzili, Şıxlar, Qaraqaşlı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 131 dəfə atəş zərbəsi endirib.

***29 yanvar 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 116 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Qızılhacılı kəndində, Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Əlibəyli, Koxanəbi, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Çaylı, Ağdam rayonunun Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Nəmirli, Şıxlar, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 120 dəfə atəş zərbəsi endirib.

*Ön xətdən reportaj*

# Sayıqlıq olan yerdə

***Cəbhədə hər gün atəşkəs pozulsa da, düşmən heç vaxt cavabsız qalmır. Səngərdə əliidə silah gecə-gündüz demədən keşik çəkən oğullarımızın mövqelərdə mətin dayandıqlarını onların sayıqlıqlarında görürük. Hər dəfə ön xətdə olanda onların hər birində Vətənə sonsuz məhəbbəti hiss edirəm. Düşmənə ən yaxın postlarda da yaradılan şərait əsgərin daha çevik, mətin xidmət etməsi üçündür.***



Kapitan Xəyyam Quliyevin xidmət etdiyi bölmənin şəxsi heyəti düşmənlə təmas xəttindədir. Zabit özü də neçə illərdir ki, ön mövqedə xidmət edir, tabeliyindəkiləri mənəviyyatca döyüşə hazırlayır. Xəyyam deyir ki, əsgərlərin həm döyüş ənənələrini, həm də nəzəri bilikləri dərindən mənimsəməklərinə nail olmaqla istənilən tapşırığı uğurla yerinə yetirməyə çalışır.

Düşmənlə üzbəüz mövqelərdən birinə gəlirik. Burada əsgərlərin təhlükəsizliyi üçün mükəmməl istehkamlar qurulub. Bu, yalnız qorunmaq üçün deyil, həm də müdafiədə etibarlı döyüş aparmaq üçün nəzərdə tutulub. Yüksəklikdə yerləşən örtülü müşahidə məntəqəsindəyik. Keşik çəkən yaraqlı-yasaqlı, zirehli geyim-keçimdə olan əsgər üç yana açılan mağzaldan müşahidə aparır. Qarşıdakı mövqelərə baxaraq bir an düşməni gözdən qoymur. Bu, əsgər Tural Rafiq oğlu Əsgərovdur. Bir ilə yaxındır Tovuz rayonundan hərbi xidmətə çağırılıb. Tural hərbi xidmətə gəldiyi gündən qarşısına məqsəd qoyub ki, Vətənə sədaqətlə xidmət edəcək, komandirlərin əmr və tapşırıqlarını vaxtında yerinə yetirəcək.

Bölmə komandiri də əsgərin xidmətindən razıdı.

- Nizam-intizam hər bir əsgərin aynasıdı,- deyən zabit tovuzlu gəncin nümunəvi bir döyüşçü olduğunu da vurğulayır.

Ön cəbhədə xidmət edən hər bir əsgərdən məsuliyyətli olmaq tələb olunur. Çünki mənfur ermənilər lap yaxınlıqda qərarlaşıblar. Onlardan istənilən an təhlükə gözlənə bilər. Bu səbəbdən də döyüşçülərimiz sayıqlıqlarını əldən vermir, hər yandan davamlı müşahidə aparırlar. Bu da mövqelərimizə soxulmağa cəhd edən düşmənin cavabını qətiyyətlə verməyə imkan yaradır.

Vətənin keşiyində mətin dayanan təcrübəli əsgər bundan sonra da hərbi xidmətini layiqincə davam etdirəcəyini bildirdi. "Nə qədər ki, torpaqlarımız yağıların işğalındadır, əlimiz silahın tətiyində olmalıdır", - dedi vətənpərvər döyüşçü.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

*Aktual müsahibə*

# "Mənəvi-psixoloji təminatın əsas məqsədi Silahlı Qüvvələrin şəxsi heyətini qarşıya qoyulmuş vəzifələrin icrasına səfərbər etməkdir"



*Hərbi xidmət başqa fəaliyyət növlərindən onunla fərqlənir ki, şərəfli olmaqla bərabər, ekstremal hallarla, çətinliklərlə doludur və hərbi qulluqçulardan peşəkarlıqla yanaşı, ruh yüksəkliyi, möhkəmlik, dözümlülük, mətinlik, fədakarlıq tələb edir. Bu keyfiyyətləri döyüşçülərdə tərbiyə etmək üçün mənəvi-psixoloji hazırlıqla bağlı kompleks tədbirlərin görülməsi zəruridir. Azərbaycan Silahlı Qüvvələrində mənəvi-psixoloji hazırlıq işini müasir tələblər səviyyəsində təşkil etmək üçün qoşunlarda psixoloq vəzifələri yaradılıb və bu peşənin sahibləri artıq bir ildən çoxdur ki, geniş fəaliyyət göstərirlər.*

*Psixoloji işin qoşunlarda yeri və rolu nədən ibarətdir? Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin mənəvi-psixoloji hazırlıq şöbəsinin baş zabiti - psixoloq polkovnik-leytenant Qabil Talıbovla söhbətimiz bu barədədir.*

***- Cənab polkovnik-leytenant, hərbçi ixtisası çətin, gərginliklə dolu bir peşədir. Bu şərəfli, ancaq çətin peşəni layiqincə yerinə yetirməkdən ötrü hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı ilə bağlı hansı işlər görülür?***

- Azərbaycan Silahlı Qüvvələrində psixoloq vəzifələrinin yaradılması Müdafiə naziri general-polkovnik cənab Zakir Həsənovun vəzifəyə təyin edilməsindən sonra ordumuzda aparılan islahatların tərkib hissəsidir. Cənab nazirin bu sahəyə xüsusi diqqət və qayğısı biz psixoloqları daha da ruhlandırır, öz işimizdə daha fəal və yaradıcı yanaşmağa sövq edir. Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyevin, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyevin psixoloji işin təşkili və aparılmasına olan dəstəkləri, tələb və tövsiyələri qarşıda duran vəzifələrin yüksək səviyyədə icrasının təmin edilməsinə zəmin yaradır.

2014-cü ildə yeni ştatlar təsdiq edildikdən sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrində kadr islahatlarının aparılması, yeni yaradılmış vəzifələrin komplektləşdirilməsi və psixoloji işin təşkili istiqamətində ardıcıl tədbirlər görüldü. Həmin ildə zabit heyətinin təkmilləşdirmə kursunda "psixoloq" ixtisası üzrə mütəxəssislər hazırlanaraq qoşunlara göndərildi. Hazırda zabit heyətinin təkmilləşdirmə kursunda psixoloqların növbəti qrupu hazırlanır. Yaxın müddətdə onlar həmin kursu başa vuraraq müvafiq vəzifələrə təyin olunacaqlar.

Qoşunlarda psixoloji iş Müdafiə nazirinin müvafiq qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrində psixoloji işin təşkili və aparılması haqqında Təlimat" əsasında təşkil olunaraq həyata keçirilir. Birlik, birləşmə və hərbi hissələrin psixoloqları qeyd edilən rəhbər sənəd əsasında öz işlərini qurur və həyata keçirirlər. Bu, bizim Silahlı Qüvvələr üçün yeni bir sahədir. Bununla belə qoşunlarda aparılan tədbirlər və onun müsbət nəticələri göstərir ki, bu işin təşkili olduqca vacibdir.

Onu da qeyd edim ki, psixoloji işin təşkili zamanı bu sahədə böyük təcrübə qazanmış ölkələrin ordularının təcrübəsindən yararlanmışıq. Məsələn, NATO dövlətlərinin, o cümlədən ABŞ-ın Silahlı Qüvvələrində uzun müddətdir ki, psixoloq vəzifələri var. Bizə yaxın olan Türkiyə Silahlı Qüvvələrində də psixoloji işin təşkili bizimçün maraqlı idi. Eyni zamanda Rusiya ordusunda bu fəaliyyətə 90-cı illərdən başlanıb və onların təcrübəsi də maraq kəsb edirdi. Bu üç dövlətin təcrübəsindən yararlanaraq Azərbaycan Ordusunda psixoloji işin təşkili məsələsinə yanaşmışıq.

Bu gün qarşıda duran ən vacib tələblərdən biri qoşunlarda şəxsi heyətin psixoloji dayanıqlığının saxlanılması, hərbi qulluqçuların və onların ailə üzvlərinin, o cümlədən mülki işçilərin psixi sağlamlığının qorunmasıdır.

***- Yeni təlimata əsasən, psixoloqlar qarşısında hansı aktual vəzifələr qoyulub?***

- Azərbaycan Silahlı Qüvvələrində tutduğu vəzifədən asılı olmayaraq bütün komandir heyəti - manqa komandirindən tutmuş hərbi hissə komandirinədək hər kəsin təlimatın tələblərinə uyğun psixoloji işin təşkili və aparılması ilə bağlı öz vəzifələri var.

Sizin də qeyd etdiyiniz kimi, hərbi xidmətə xas çətinlikləri dəf etmək üçün hərbi qulluqçulardan psixoloji dayanıqlıq tələb olunur. Düşmənlə bilavasitə təmas vəziyyətində olan hərbi hissələrdə şəxsi heyət müntəzəm döyüş növbətçiliyi aparır. Bu zaman hərbi qulluqçuların mənəvi-psixoloji təminatı yetərincə aktuallıq kəsb edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri bu gün ən müasir silah və texnika ilə təchiz edilib və bu iş davam etdirilir. Lakin bütün modern silah və texnikanı idarə edən insandır. Buna görə də şəxsi heyətin psixoloji dayanıqlığı daim yüksək səviyyədə saxlanmalıdır ki, o, hərbi xidmət dövründə və döyüş fəaliyyətlərində qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirə bilsin.

Dünyada baş verən müharibələrin təhlili sübut edir ki, psixoloji üstünlüyü əldə etmək müharibənin gedişini öz xeyrinə həll etməyin yarısına bərabərdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, Müdafiə Nazirliyinin rəhbərliyi də dəfələrlə öz çıxışlarında vurğulayıblar ki, Silahlı Qüvvələrimiz son illər cəbhədə düşmən üzərində psixoloji üstünlüyə nail olub. Azərbaycan əsgərləri üçün əsas üstünlük ondan ibarətdir ki, onlar nə üçün mübarizə apardıqlarını yaxşı bilirlər. Əmindirlər ki, işğal edilmiş torpaqlar əzəli Azərbaycan əraziləridir, Vətənimizin ayrılmaz hissəsidir. Məhz bu həqiqətləri dərindən dərk edərək hərbi qulluqçularımız xidmət aparır, səngərlərdə fədakarlıqla döyüş növbəsinə çıxırlar. Düşmən əsgəri isə başa düşür ki, işğal altında saxladıqları torpaqlar onların deyil və nə vaxtsa o yerlərdən çəkilməli olacaqlar.

***- Bir məsələyə də aydınlıq gətirməyinizi istərdim. Psixoloji işin obyekti kimdir, yalnız əsgərdir, yoxsa digər kateqoriyadan olan hərbi qulluqçular?***

- Psixoloji işdən danışarkən iki məsələyə toxunmaq lazımdır: psixoloji işin obyektləri və subyektləri. Obyekt dedikdə nəyi nəzərdə tuturuq? Silahlı Qüvvələrdə hamı - mülki işçisindən, əsgərindən tutmuş hər bir kəs bu işin obyektidir. Zabitlər də, təbii ki, psixoloji işin obyektidir. Hər bir komandir və rəis öz tabeliyindəki bütün şəxsi heyətlə bu işi aparmalıdır. Ümumiyyətlə, bu tədbirlərin hədəfindən kənarda qalan şəxs yoxdur. Psixoloji işin subyektləri isə bu işi bilavasitə həyata keçirən vəzifəli şəxslərdir.

***- Deməli, təkcə psixoloqlar deyil, həmçinin bütün kateqoriyadan olan komandir və rəis heyəti şəxsi heyətlə psixoloji işi aparmağa borcludur. Bunların vəzifə səlahiyyətlərinin bir hüdudu varmı? Yəni kimin işi, məsuliyyəti harada başlayır, harada bitir?***

- Öncə qeyd etdiyim kimi, psixoloji iş əslində hər bir komandirin vəzifəsidir. "Azərbaycan Respublikası Silahlı Qüvvələrində psixoloji işin təşkili və aparılması haqqında Təlimat"da da aydın göstərilib ki, kim hansı vəzifələri yerinə yetirməlidir, komandirlərin, qərargahların, şəxsi heyətlə iş üzrə zabitlərin vəzifələri nədən ibarətdir. Hətta tibb xidməti bu baxımdan nə işlə məşğul olmalıdır. Bütün bunlar təlimatda öz əksini tapıb. Əsas məsuliyyət isə psixoloji sahədə fəaliyyət göstərən mütəxəssislərin üzərinə düşür. Burada bir vacib məsələni qeyd etmək lazımdır ki, bütün komandir heyəti apardığı psixoloji iş zamanı mütəxəssis-psixoloq tərəfindən aparılmış müvafiq müayinələr nəticəsində əldə edilmiş məlumatlara əsaslanmalıdır. Bu məlumatlar isə qorunmalıdır. Yəni psixoloji işin etik normaları var, bir hərbi qulluqçu barəsində toplanmış məlumatların kənar şəxslərə ötürülməsi qadağandır.

***- Hazırkı dövrdə hərbi hissələrdə psixoloji iş necə təşkil edilib?***

- Göstərilən təlimatın tələblərinə əsasən, əsgərin hərbi xidmətə çağırıldığı gündən ehtiyata buraxıldığı günədək davamlı psixoloji iş aparılır. Yeniyetmə və gənclər hərbi xidmətə qədər mənəvi baxımdan Vətənin silahlı müdafiəsinə hazırlanırlar. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər və rayon qurumlarında çağırışçılar sağlamlıqla yanaşı, ilkin psixoloji müayinədən də keçirilirlər.

Hərbi xidmətə gəldikləri gündən gənc əsgərlərin hazırlığı ilə məşğul olan hərbi hissələrdə bu proses davamlı və məqsədyönlü xarakter alır.

Sənədlərin öyrənilməsi, fərdi söhbətlərin aparılması nəticəsində əsgərlərin psixoloji durumu barəsində ilkin məlumatlar toplanır. Bundan sonra problemi, şübhə doğuran davranışları olan, həmçinin intizamsızlığa meyilli əsgərlər müəyyən edilir və onların dərindən öyrənilmə prosesi başlanır. Müxtəlif psixoloji test metodikalarından istifadə etməklə, müşahidələr aparmaqla, hər bir əsgərin sosial-psixoloji məlumat kartı və psixoloji portreti tərtib olunur, gənc əsgər hazırlığını bitirdikdən sonra xidmətini davam etdirəcəyi hərbi hissəyə göndərilir.

Artıq əsgər hərbi hissəyə gəldikdə komandir heyəti onun barəsində tam dolğun məlumata malik olur. Həmin məlumat əsasında hərbi hissədə əsgərlərin düzgün istiqamətləndirilərək hərbi xidmətə adaptasiya edilməsi üçün tədbirlər görülür, onlar müvafiq hərbi vəzifələrə təyin edilirlər. Çünki hər bir əsgər psixoloji cəhətdən öyrənildikdən sonra onların hansı sahədə istifadə edilməsini müəyyənləşdirmək mümkün olur.

Bu proses hərbi qulluqçunun xidmətini başa vuranadək davam etdirilir və hər bir əsgər bu dövrdə psixoloji olaraq müşayiət olunur.

Bu gün bizim əsas önəm verdiyimiz sahələrdən biri psixoloji maarifləndirmədir. Şəxsi heyət mütəmadi qaydada psixoloji cəhətdən məlumatlandırılmalıdır. Döyüşçülərə vətənpərvərlik hisslərinin aşılanması, düşmən üzərində qələbə əzminin möhkəmləndirilməsi, xidmət etdiyi yerin xüsusiyyətləri, orada xidmət aparılmasının vacibliyini əsgər psixoloji cəhətdən düzgün qavramalıdır.

***- Hərbi xidmət prosesində şəxsi heyət müxtəlif tapşırıqları yerinə yetirir. Təbii ki, döyüşçülərin həmin işlərin icrasına köklənməsi üçün mənəvi-psixoloji hazırlıq işinin aparılması zəruridir.***

- Biz, ümumiyyətlə, şəxsi heyətlə psixoloji işin aparılmasını sülh və döyüş əməliyyatları dövrlərinə uyğunlaşdırmaq üçün iki istiqamətə ayırmışıq.

Döyüş əməliyyatları zamanı psixoloji işin aparılması prosesi də üç mərhələdən ibarətdir: döyüş öncəsi psixoloji hazırlıq, əməliyyatlar zamanı şəxsi heyətin psixoloji müşayiət olunması və ehtiyacı olan hərbi qulluqçulara psixoloji yardımın göstərilməsi. Hərbi əməliyyatlar zamanı şəxsi heyətə psixoloji yardımın göstərilməsi məqsədilə psixoloji yardım və bərpa məntəqələri açılır. Döyüş əməliyyatları aparılarkən psixoloji itkilərin qarşısının alınması üçün ilkin olaraq psixoloji travma almış döyüşçülər dərhal müəyyən edilirlər. Belə hərbi qulluqçulara psixoloji yardım göstərildikdən sonra yenidən döyüşə qaytarılır, zərurət yarandıqda isə həmin döyüşçülər təxliyyə olunurlar.

Döyüşdən sonra isə artıq psixoloji reabilitasiya tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Mütəxəssis-psixoloqların bu sahədə lazımi təcrübə və vərdişlər qazanması üçün mütəmadi olaraq işlər görülür. Yəni qoşunların döyüş hazırlığı prosesində paralel olaraq psixoloji hazırlıq işi də aparılır. Mənəvi-psixoloji təminatın məqsədi də şəxsi heyəti qarşıdakı bütün vəzifələrin, xüsusən də döyüş tapşırıqlarının icrasına səfərbər etməkdir.

Bu gün fəal döyüş əməliyyatları aparılmasa da, cəbhə xəttində düşmən tərəfindən törədilən kəşfiyyat-diversiya qruplarının qarşısının alınması, atəşkəs rejiminin gündəlik olaraq pozulması danılmaz faktdır. Ona görə şəxsi heyətin döyüş növbətçiliyinə psixoloji baxımdan hazırlanması, növbətçiliyin aparılması və növbədən sonra görülən psixoloji tədbirlər mühüm əhəmiyyət kəsb edir.

Cənab Müdafiə nazirinin və Müdafiə Nazirliyinin digər rəhbər heyətinin bilavasitə ön səngərlərdə hər dəfə şəxsi heyətlə görüşərək onların xidmət şəraiti ilə maraqlanması, bir süfrə arxasında əyləşərək səmimi söhbət etmələri, ordu rəhbərliyinin onlara olan diqqət və qayğısı hərbi qulluqçuları daha da ruhlandırır və onların qələbə əzmini gücləndirir. Cənab nazirin şəxsi heyətlə nahar süfrəsində çörəyi kəsib əsgərlərlə paylaşarkən "Mən sizinlə çörək kəsirəm, çünki biz birlikdə döyüşəcəyik" sözləri bütün hərbi qulluqçulara güclü psixoloji dəstəkdir və hamını bir yumruq kimi birləşərək düşmən üzərində qələbəyə ruhlandırır.

***- Müsahibəyə görə sağ olun.***

**Söhbətləşdi:**
**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İtaliyanın "ENI" şirkəti qaz sahəsində İrana 4 milyard dollarlıq əməkdaşlıq təklif edib



İtaliyanın enerji nəhəngi "ENI" şirkəti İranın Cənubi Pars qaz sahəsinin sonuncu modulu olan 11-ci modulu tamamlamaq üçün 4 milyard dollarlıq layihə təklif edib.

"ENI" İranın neft sektorunun rəhbərlərinə təqdim etdiyi 4 milyard dollarlıq layihənin tamamlanması üçün 36 ay vaxt müəyyən edib.

Qeyd edək ki, "ENI" sanksiyalardan əvvəl Cənubi Pars qaz sahəsinin 4 və 5-ci modullarının inkişafı layihələrində çalışmışdı.

"Wall Street Journal"a müsahibəsində "National Iranian Gas Export Co."nun baş direktoru Əli Rza Kameli İranın təbii qaz ehtiyatlarının çıxarılması və ixracı üçün yeni yollar axtarışlarının davam etdiyini, həmçinin "LNG" müəssisələrinin qurulmasının vacibliyini bildirib.

## Yaponiyada ən hündür şəlalə donub



Yaponiyada kəskin soyuqlar nəticəsində ən hündür şəlalə donub. Vakayama prefekturasında yerləşən Naçinoçaki şəlaləsinin hündürlüyü 133 metrə çatır.

Şəlalənin yaxınlığında yerləşən Kumano Naçi Taysya sintoist məbədi hündürlükdən tökülən və ilahi qüvvəni özündə əks etdirən bu suya həsr edilib.

Yanvarın 25-də məbəddə qulluq edən kahin şəlalənin töküldüyü hövzənin tamamilə donduğunu və ətraf qayalardan sırsıraların sallandığını müşahidə edib.

Buz üzərində sınan Günəşin al şəfəqləri göy qurşağının bütün rənglərini əks etdirərək gözəl mənzərə yaradıb.

## Çilidə Pinoçet rejimi qurbanlarının ailələrinə təzminat veriləcək



Çili Ali Məhkəməsi keçmiş diktator Auqusto Pinoçet rejimi qurbanlarının ailələrinə 1.3 milyon dollar həcmində təzminat verilməsi barədə qərar qəbul edib.

Bu vəsait 1973-1974-cü illərdə itkin düşən 4 nəfərin ailələri arasında bölünəcək. Çili hökuməti 975 min dollar məbləğində ən böyük təzminatı 1973-cü ildə Parral şəhəri yaxınlığında itkin düşən Migel və Hilberto Roxasın ailəsinə ödəyəcək. Bir il sonra yoxa çıxan digər iki müxalifətçinin ailələri isə müvafiq olaraq 272 və 16 min dollar alacaq.

Xatırladaq ki, Çilidə 1973-cü ildə baş verən hərbi çevrilişə sonradan hakimiyyəti ələ keçirən və onu yalnız 1990-cı ildə mülki hökumətə təhvil verən Auqusto Pinoçet rəhbərlik edib. Onun hakimiyyəti illərində siyası motivlərə görə 3.2 min nəfər öldürülüb, 1.2 min nəfər itkin düşüb, 28 min nəfər isə işgəncələrə məruz qalıb. Barəsində cinayət işi açılan diktator 2006-cı ildə 91 yaşında vəfat edib.

## ABŞ-da Zika virusuna yoluxma halları qeydə alınıb



Həkimlər bu yaxınlarda təhlükəli Zika virusunun yayıldığı ölkədən qayıtmış Virciniya ştatı sakinində virusa yoluxma halı aşkarlayıblar.

Yerli səhiyyə departamenti ştatda virusun yayılma riskinin olmadığını bildirib. Belə ki, xəstəlik ağcaqanadlar vasitəsilə yayılır və hazırda regionda mövsüm bu həşəratlar üçün əlverişli deyil.

Yanvarın 26-da, həmçinin daha bir amerikalıda - virusun aktiv olduğu ölkədən qayıdan Arkanzas sakinində yoluxma halı qeydə alınıb. Bununla bağlı həkimlər isti ölkələrə səfər edən vətəndaşlara getdikləri regionda xəstəliyin yayılması barədə vəziyyətlə tanış olmağı tövsiyə edib.

Xatırladaq ki, Afrika və Asiya ölkələrində rast gəlinən Zika virusu 2015-ci ildə tez bir zamanda Cənubi Amerikada da yayılmağa başlayıb. Dünya Səhiyyə Təşkilatı epidemiyanın Kanada və Çili istisna olmaqla, bütün Şimali və Cənubi Amerika ölkələrini əhatə edəcəyi barədə xəbərdarlıq yayıb.

Zika xəstəliyinə yoluxma hallarının qarşısını alınmaq və ya onu müalicə etmək üçün hələ ki, heç bir vaksin mövcud deyil. Xəstəlik qızdırma, səpmə və digər simptomlarla müşayiət olunur, azyaşlı uşaqların beynini ciddi şəkildə zədələyir.

## Berlində yəhudi əsirlərin sərgisi açılıb



Almaniya Kansleri Angela Merkel Berlində rəsm sərgisinin açılışında iştirak edib.

Sərgini qeyri-adi edən isə orada nümayiş olunan əsərlərdir. Təşkilatçılar sərgidə 1939-1945-ci illərdə nasist düşərgələrində saxlanılan yəhudilər tərəfindən çəkilmiş 100 rəsm əsərini iştirakçılara təqdim ediblər. Qeyd edək ki, bu, İsrail hüdudlarından kənarda təşkil olunan ilk böyük sərgidir.

Berlindəki Alman tarixi muzeyində fəaliyyətə başlayan "Xolokost sənəti" sərgisi aprelin 3-dək davam edəcək. Sərgi Xolokost qurbanlarının beynəlxalq anım günü - 27 yanvar ərəfəsində açılıb. Əsərləri nümayiş etdirilən 50 müəllifdən 24-ü faşistlər tərəfindən qətlə yetirilib.

## Qazaxıstan: helikopter qəzasında həlak olanların hamısının cəsədi tapılıb



Qazaxıstanın cənub-şərqində Almatı vilayətində sanitar aviasiyasına məxsus helikopterin qəzaya uğradığı yerdə göyərtədə olan 5 nəferin hamısının cəsədi aşkarlanıb. Fövqəladə vəziyyət üzrə vilayət departamentinin operativ hissəsindən axtarış əməliyyatlarının başa çatdığı bildirilib.

Yanvarın 27-də xəstə uşağı Uşarala yaşayış məntəqəsindən regionun administrativ mərkəzi Taldıkorqan şəhərindəki xəstəxanaya aparan MD-600 helikopteri ilə əlaqə kəsilib. Helikopterin göyərtəsində 5 nəfər - pilot, həkim, feldşer və 2015-ci il təvəllüdlü xəstə uşaqla anası olub.

Axtarış əməliyyatlarına Qazaxıstan Daxili İşlər Nazirliyinin şəxsi heyətinin yüzlərlə əməkdaşı cəlb olunub. Helikopterin qalıqları yanvarın 28-də səhər saatlarında dağlıq ərazidəki dərədə aşkarlanıb. Daxili İşlər Nazirliyinin məlumatına əsasən göyərtədəki insanların hamısı həlak olub. Qəza ilə əlaqədar istintaq öncəsi yoxlamalar başlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın Hərbi Hava Qüvvələrinin komandanı Bəhreyn beynəlxalq hava şousunda iştirak edib




Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Hərbi Hava Qüvvələri komandanı general-leytenant Ramiz Tahirov Bəhreyn Kralı Həməd bin İsa Əl Xəlifənin himayəsi, Bəhreyn Nəqliyyat və Telekommunikasiya Nazirliyinin, bu ölkənin Hərbi Hava Qüvvələri Komandanlığının birgə təşkilatçılığı ilə keçirilən Bəhreyn beynəlxalq hava şousunda iştirak edib. 34 ölkədən 75 nümayəndə heyətinin iştirak etdiyi və 139 aviaşirkətin təmsil olunduğu tədbirdə müasir hərbi texnikalar, rabitə-telekommunikasiya sistemləri və mülki aviasiya sahəsində innovasiyalar barədə xüsusi pavilyonlar təşkil edilib, hərbi təyinatlı təyyarələrin xüsusi manevrli uçuşları nümayiş olunub.

ABŞ, Böyük Britaniya, Fransa, Səudiyyə Ərəbistanı, Livan, Pakistan, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və digər ölkələrin Hərbi Hava Qüvvələri Komandanlarının iştirak etdikləri Manama Hava Qüvvələri simpoziumu və Bəhreyn hava şousunda hərbi hava qüvvələrinin şəxsi heyətinin və texnikasının müasir standartları, ölkələrin xarici təhlükələrdən qorunması yolları, ən əsası terror hücumlarının qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq imkanlarının öyrənilməsi əsas müzakirə mövzusu olub.

General-leytenant Ramiz Tahirov tədbir çərçivəsində Bəhreynin Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi Şeyx Xəlifə bin Əhməd Əl-Xəlifə, Bəhreyn Krallığı Hava Qüvvələrinin komandanı general-mayor Şeyx Həməd bin Abdulla Əl-Xəlifə və Pakistan Hərbi Hava Qüvvələrinin şəxsi heyətinin rəhbəri, Hava Qüvvələri üzrə marşal Sohail Aman ilə görüşüb.

Tədbirlərdə və görüşlərdə Azərbaycanın Səudiyyə Ərəbistanında və eyni zamanda Bəhreyn Krallığındakı səfirliyinin əməkdaşları da iştirak ediblər.

**AZƏRTAC**

*Gənc zabitlərimiz*

# "Atamın davamçısı olacağıma söz verdim"

***Baş leytenant Qara Rüstəmli Hərbi Dəniz Qüvvələrinin gənc zabitlərindəndir. Peşəsinə bağlılığı ilə seçilən gənc zabit Xəzərin vurğunudur. "Dənizi sevməsən, gəmini sularda necə idarə edə bilərsən?"***

- Hərbçi ailəsində dünyaya göz açmışam, - deyir baş leytenant. - Atam ordumuzun ilk zabitlərindəndir. Böyüdükcə atamın davamçısı olacağıma söz verdim. Mən hələ erkən yaşlarımda müharibənin nə demək olduğunu anlayırdım. Çünki günlərlə atam evə gəlmirdi. Müharibə gedirdi. Çox çətin vaxtlar idi.

Həmsöhbətim yiyələndiyi sənətin özəl xüsusiyyətlərindən maraqla danışır. "Yaxşı yadımdadır. 5-ci sinifdə oxuyanda müəllimlərimizdən biri demişdi ki, oğlanlar çox zaman ata yolunun davamçısı olurlar. Həqiqətən də, o fikir yaddaşımda qaldı. Yolumu arzuladığım istiqamətə - hərbi sahəyə yönəltdim".

Baş leytenant Q.Rüstəmli 26 may 1989-cu ildə Göyçay rayonunda anadan olub. Atasının xidməti vəzifəsi ilə əlaqədar rayondan paytaxta - Bakı şəhərinə köçməli olurlar. Bu o dövr idi ki, ölkədə Silahlı Qüvvələrimizin formalaşmasına yenicə başlanmışdı. Qara da həmyaşıdları kimi orta məktəbdə oxuyurdu. Gələcəkdə hansı sənətin sahibi olacağını yeniyetmə yaşlarından müəyyənləşdirən Qara 2003-cü ildə Türkiyə Respublikasının İstanbul şəhərində yerləşən Heybəli Dəniz Liseyinə daxil olur. 2007-ci ildə isə İstanbuldakı Tuzla Dəniz Hərbi Məktəbində təhsilini davam etdirir və seçdiyi hərb peşəsinin sirlərinə dərindən yiyələnmək üçün gecə-gündüz çalışır. Hər gün təlimlər, ağır dərslər onu qorxutmur, əksinə, hərbi dənizçi peşəsinin nəzəri-təcrübi sirlərini mükəmməl öyrənərək 2012-ci ildə məzun adını qazanır. Kursantlıq dövründə çəkdiyi zəhmət onu savadlı, bacarıqlı zabit kimi yetişdirir. Hələ Türkiyədə kursant bölüyünün bölük komandiri vəzifəsində çalışarkən şəxsi heyətlə işləməyin məsuliyyətini dərindən başa düşür.



Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində bu gün vəzifəsinin öhdəsindən bacarıqla gələn baş leytenant Q.Rüstəmli az vaxtda komandanlığın hörmətini qazanıb. O, keçən ilin yayında "Kaspi-2015" Xəzəryanı dövlətlərin beynəlxalq dənizçilik yarışlarında iştirak etdiyini və qalib olduğunu bildirdi. "Yarışlar iki hissədən ibarət idi. Birinci hissədə silahlardan istifadə etməklə dənizdə atışlar aparmaq, ikinci hissədə isə dənizçilik yarışlarının təşkili. Yarışların şərtlərinə əsasən, gəmi lövbərə qoyulmalı, bayraqlar vasitəsilə hərəkətlər dəqiqləşdirilməli idi. Bu yarışda nümunəvi atışlar icra etdik, hava hədəfinə, üzən minaya və dəniz hədəfinə sərrast atəş açmağı bacardıq. Hava hədəfinə daha tez - iki saniyə ərzində atəş açdığına görə ən yaxşı komendor adını miçman Namiq Sultanov qazandı. Yarışda iştirakçı olan əsgər və zabit heyətindən "Ən yaxşı bosman", "Ən yaxşı mexanik" və "Ən yaxşı siqnalçı" adına layiq görülənlər də oldu. Mən isə bu yarışda "Ən yaxşı vaxta zabiti" adını qazandım. Yarış zamanı rabitə vasitəsilə rəqib komandanın yüksək rütbəli zabitləri bizi təbrik edirdilər. Yarışın qalibləri qiymətli hədiyyələr və fəxri fərmanlarla mükafatlandırıldılar".

Olduqca təvazökar görünən gənc zabit haqqında onu da öyrəndim ki, 2013-cü ildə Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən ona qiymətli hədiyyə təqdim edilib.

Gənc zabitə xidmətində uğurlar, müqəddəs Vətəni qorumaq peşəsinin yeni zirvələrini fəth etməsini arzulayırıq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

**Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, yanvarın 29-da Tibb Baş İdarəsində "Qrip və kəskin respirator xəstəliklərin müalicə və profilaktikası" mövzusunda Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi ilə birgə elmi konfrans keçirilib.**

# "Orduda şəxsi heyətin sağlamlığı tam nəzarətdədir"

## Müdafiə Nazirliyinin Tibb Baş İdarəsi elmi konfrans keçirib



Konfransda Tibb Baş İdarəsinin zabitləri, Hərbi Tibb Fakültəsinin professor-müəllim heyəti, Mərkəzi Hərbi Poliklinikanın, Sanitar-Epidemioloji Nəzarət Mərkəzinin nümayəndələri, Bakı Qarnizonunun hərbi həkimləri və rezidentlər iştirak ediblər.

Qeyd edək ki, konfransa hazırlıq məqsədi ilə təşkilat komitəsi yaradılmışdı. Silahlı Qüvvələrin baş cərrahı, tibb elmləri doktoru, tibb xidməti polkovniki Famil Babayev, Hərbi Tibb Fakültəsi rəisinin elmi işlər üzrə müavini, tibb elmləri namizədi, tibb xidməti polkovnik-leytenantı Pərviz Məmmədov, Tibb Baş İdarəsinin tibbi profilaktika şöbəsinin rəis müavini, tibb elmləri namizədi, tibb xidməti mayoru Surxay Məmmədov təşkilat komitəsinin üzvləridir.

Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev konfransı giriş sözü ilə açaraq ölkəmizdə hərbi səhiyyənin uğurlarından və bu sahənin inkişaf etdirilməsi üçün dövlətimizin rəhbərliyi tərəfindən həyata keçirilən tədbirlərdən danışıb. Ötən il Silahlı Qüvvələrimizin hərbi tibb xidmətinin təkmilləşdirilməsi üçün görülən işləri qeyd edən idarə rəisi vurğulayıb ki, 2015-ci ildə xəstəlik hallarına görə orduda heç bir ölüm faktı qeydə alınmayıb. "Əlbəttə, bu sevindirici haldır və buna səbəb olan əsas amillər hərbi hissə və birləşmələrdə şəxsi heyətin sosial-məişət şəraitinin, qida təminatının yaxşılaşdırılması üçün görülən tədbirlərlə və həmçinin vaxtında aparılan tibbi profilaktik, sanitar-epidemioloji işlərlə bağlıdır. Son bir neçə ildə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən hərbi səhiyyənin müasir səviyyədə qurulması üçün yetərincə işlər görülüb. Həm bölgələrdə yeni hərbi hospitallar yaradılıb, həm də tibb xidmətinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb".



Hərbi tibb kadrlarının peşəkarlıq səviyyəsinin artırılmasına toxunan general N.Əliyev bu məqsədlə vaxtaşırı həm paytaxtımızda, həm də bölgələrdə müxtəlif aktual mövzularda elmi konfransların keçirildiyini və belə tədbirlərə ölkənin nüfuzlu tibb mütəxəssislərinin dəvət edildiyini bildirib. O, bu gün Azərbaycan Tibb Universiteti Hərbi Tibb Fakültəsinin, Bakı Qarnizonu hərbi həkimlərinin və digər mütəxəssislərin iştirakı ilə keçirilən elmi konfransın qrip və digər kəskin yoluxucu xəstəliklərlə profilaktik mübarizəyə töhfə verəcəyini qeyd edib.

- Heç kəsə sirr deyil ki, hazırkı mərhələdə bizimlə sərhəd olan regionlarda, məsələn, Rusiyada, Türkiyədə, Gürcüstanda, Ukraynada, hətta Ermənistanın ordusunda donuz qripi virusunun yayılması ölkəmizin tibb ictimaiyyətinin bu məsələdə məsuliyyət hissini qat-qat artırıb, - deyə general vurğulayıb. - Bu qorxunc virusa yoluxma hallarına rast gəlinməməsi üçün dövlət rəhbərliyinin göstərişi ilə Səhiyyə Nazirliyində, habelə, Dövlət Sərhəd Xidmətində zəruri tədbirlər həyata keçirilir. Qeyd etməliyəm ki, bu məqsədlə Silahlı Qüvvələrimizdə də önəmli addımlar atılır. Müdafiə naziri tərəfindən qarşımıza qoyulan



əsas tələb ondan ibarətdir ki, orduda şəxsi heyətin sağlamlığı etibarlı şəkildə qorunmalı və bunun üçün bütün vacib tədbirlər həyata keçirilməlidir.

Sonra Hərbi Tibb Fakültəsinin tibbi profilaktika kafedrasının rəisi, tibb elmləri namizədi, tibb xidməti polkovniki Fərhad Meybəliyev "Donuz qripinin epidemiologiyasının və profilaktikasının bəzi aspektləri", Tibb Baş İdarəsi müalicə-profilaktika şöbəsinin baş zabiti, tibb xidməti polkovnik-leytenantı Azad Məmmədov "Donuz qripi və digər mövsümi qriplərin etiologiyası, klinikası, diaqnostikası və müalicəsi", tibb elmləri namizədi, tibb xidməti mayoru Surxay Məmmədov "Donuz qripinin laborator diaqnostikası, ocaqlarda aparılan əksepidemik tədbirlər" mövzularında məruzə ilə çıxış ediblər.

Sonda müzakirələr aparılıb, mütəxəssislər dəyərli fikirlərini bölüşüblər.

**Leytenant Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

*Sosial həyat*

# Əsgərlərə diqqət və qayğı günü-gündən artır

Soyuq qış fəslini yaşayırıq. Şaxtanın təsirindən insanın nəfəsi donur. Övladları dağ, çöl şəraitlərində düşmən qarşısında xidmət edirlər. Hər bir valideyn yaxşı bilir ki, oğul düşmən çəpəridir. Soyuq, boran bilmədən düşmən qarşısında duran döyüşçülərin isə bir amalı var: torpaqlarımızı qorumaq, Vətənin keşiyində ayıq-sayıq dayanmaq. Belə vətənpərvər əsgərlər hansı şəraitdə xidmət etdiklərindən asılı olmayaraq, vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Son vaxtlar cəbhə xəttində yaradılmış yüksək məişət şəraiti, maddi-texniki təminat da buna zəmin yaradır. Hansı uzaqlıqda, yüksəklikdə olmasından asılı olmayaraq postlarda xidmət edən döyüşçülərin təminatı yüksək səviyyədə təşkil olunur.



Bu yaxınlarda cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində olarkən bir daha bunun şahidi oldum. "N" hərbi hissəsinin düşmən qüvvələri ilə bilavasitə təmas xəttində yerləşən postunda idim. Postda yaradılan şərait heç də arxa cəbhədəki bölmələrin şəraitindən geri qalmırdı. Əsgər yataqxanasına daxil oldum. Yataqxanın səliqə-sahmanı göz oxşayırdı. Bir və ikimərtəbəli çarpayılar, yataq dəstləri və s. əsgərlərin sosial-məişət şəraitinin yüksək olduğundan xəbər verirdi. Gördüklərim ordu quruculuğunda aparılan islahatların, şəxsi heyətin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin nəticəsidir. Sanki şəhərin mərkəzində yeni tikilmiş hərbi hissənin yataqxasında gəzirəm. Halbuki düşmənlə təmas xəttində yerləşən bölmədəyəm. Üzümü sizlərə tuturam əziz oxucular, xüsusən də valideynlər, övladlarınızdan nigaran qalmayın. Vətənpərvər komandirlər sizlər kimi onların qayğısına qalır. Göstərilən diqqət və qayğı isə əsgərlərin döyüş qabiliyyətini daha da yüksəldir, vətənpərvərlik hisslərini artırır. Əsgərlərdən Emil Babazadə və Amid Şahbazlı ilə həmsöhbət oldum. Onlar döyüş növbəsindən qayıtdıqdan sonra yataqxananın səliqə-sahmanı ilə məşğul olurdular. Hərbi xidmətə Bakı şəhərindən çağırılmış Emil Babazadə sözə başladı:

- Xidmətə çağırılanda çox sevindim. Hər bir Azərbaycan gənci kimi mənim də arzum əsgər olmaq, Vətənə borcumu layiqincə yerinə yetirmək olub. Xidmətin ən çətin ayları qış mövsümüdür. Lakin qış geyim formamız, isti yataqxanamız, qida təminatımız qaydasında olduğu üçün, bu çətinliklər bizdən uzaqdır. Üstümüzə bir vəzifə düşür: ayıq-sayıq torpaqlarımızın keşiyində hərbi xidmətin öhdəsindən bacarıqla gəlməklə, Azərbaycan əsgəri adına layiq olmaq üçün əlimizdən gələni edirik.

Sonra həmsöhbətimiz Lerik rayonundan hərbi xidmətə çağırılmış əsgər Amid Şahbazlı deyir:

- Əsgəri xidmət hər bir gəncin Vətənə borcu olduğu baxımından qürur mənbəyidir. Bizi qoynunda bəsləyən Vətən torpaqlarını qorumaq qürurvericidir. Xidmətə gəlməmişdən qabaq televiziyada tez-tez əsgərlərin məişət şəraiti ilə bağlı süjetləri izləyirdim. İsti yataq yerimizdən tutmuş qida, geyim və məişət ləvazimatlarına kimi təmin olunmuşuq. Bu cür qayğını gördükdən sonra ordumuzla bir daha qürur duyduğumu bildirirəm. Bizə olan bu yüksək diqqət və qayğı döyüş ruhumuzu daha da artırır.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

**Son illər ölkəmizin ordu quruculuğu sahəsində qazanılan uğurlar hərbi təbabəti də əhatə edir. Nəinki paytaxtda və şəhərlərdə, həmçinin cəbhə xəttinə yaxın bölgələrdə hərbi səhiyyənin inkişaf etdirilməsinə ciddi önəm verilir. Yeni və müasir hospitallar tikilir, müayinə və müalicə şəraitini yüksək tələblər səviyyəsinə qaldırmaq üçün məqsədyönlü işlər görülür.**

# "Həm vəzifə, həm də vətəndaşlıq borcumuzdur..."

Bu yaxınlarda cəbhə bölgəsində yerləşən hospitallarda olduq və burada yaradılmış şəraitlə, döyüşçülərə göstərilən tibbi xidmətlə yaxından maraqlandıq. 6 müalicə bölməsindən ibarət olan hospitalın fəaliyyətinin əsas istiqaməti bölgədə yerləşən hərbi bölmələrin şəxsi heyətinə cərrahi və terapevtik yardım göstərməkdir. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün tibb kollektivi bacarıq və səylərini əsirgəmir.

Tibb xidməti polkovnik-leytenantı Əli Əliyev söhbətimizdə son illər hərbi səhiyyənin inkişaf etdirilməsi üçün Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən həyata keçirilən tədbirlərdən danışaraq deyir:

- Əvvəlki illərlə müqayisədə hazırda orduda hərbi tibb xidmətinin fəaliyyətində xeyli nailiyyətlər qazanılıb, daha dəqiq desəm, müasir müalicə mühiti formalaşıb. Tibbin son texniki nailiyyətlərinə əsaslanan müasir avadanlıqlar, diaqnostik aparatlar hərtərəfli müayinə aparılmasına imkan verir. Əgər bir vaxtlar cərrahi müdaxiləyə ehtiyacı olan xəstələr paytaxta təxliyyə edilirdisə, hazırda buna ehtiyac duyulmur. Mürəkkəb cərrahiyyə əməliyyatları bu gün bölgələrdə də asanlıqla həyata keçirilir. Müasir maddi-texniki imkanlara malik olan hərbi səhiyyə ocağının savadlı və bacarıqlı tibb kontingenti bu işlərin öhdəsindən bacarıqla gəlir. Müxtəlif vacib ixtisaslar üzrə həm ölkə daxilində, həm də xarici dövlətlərdə təşkil edilən kurslarda həkimlərimiz də təmsil olunurlar. Bu isə onların müasir səviyyədə peşə hazırlığının formalaşmasına zəmin yaradır.



Tibb bölüyünün komandiri mayor İbrahim İsgəndərov söhbətimizə qoşularaq bildirir ki, əvvəlki vaxtlarla müqayisədə hospitala qəbul edilən xəstələrin sayında kəskin azalma hiss olunur. Tibb zabitinə görə, bu hər şeydən əvvəl dövlətin və ordu rəhbərliyinin yüksək qayğısı sayəsində hərbi bölmələrdə yaradılan müasir məişət şəraiti ilə bağlıdır. "Gənc əsgər heyəti ilə aparılan tibbi-profilaktik tədbirlər onların sağlamlığının qorunmasına təminatdır", - deyə mayor bildirir.

Təcrübəli həkimlərdən Anar Məmmədov, Famil Quliyev, Samir Süleymanov, İlqar Heydərov, Emin Əhmədov, Ələsgər Aydınov, həmçinin qayğıkeş tibb bacıları Afət Yusifova, Elvira Əsgərova, Turanə Musayeva, Nailə Quliyeva və başqaları müqəddəs vəzifə borclarını daim məsuliyyət hissi ilə yerinə yetirir, hərbi qulluqçuların sağlamlığı keşiyində dayanmağı vətəndaşlıq borcu hesab edirlər.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

Multikulturalizm - eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir.

Müasir Azərbaycan bu gün dünyanın ən mötəbər beynəlxalq təşkilatları, ictimai birlikləri tərəfindən hüquqi, demokratik dəyərlərə sahib, dinamik inkişaf edən və regionun ən güclü iqtisadiyyatına sahib olan ölkə kimi tanınır. Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq, mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ildə Bakıda bir neçə mötəbər tədbirin, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun keçiriləcəyini bildirdi. Ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verdiyini nəzərə alaraq, dövlət başçısı 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etdi.

Tarixi İpək Yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma yaşadığı diyar kimi tanınıb. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub. Bu gün isə tolerantlıq kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan vətəndaşının gündəlik həyat tərzinə çevrilib.

Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. O, ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması və inkişafına azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəlib. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya kimi multikulturalizm tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı

*Multikulturalizm*




zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün dünyanın bir nömrəli problemi məhz tolerantlığın, qarşılıqlı hörmətin, mədəniyyətlərarası dialoqun yetərincə olmamasıdır: "Bu gün Avropada, Yaxın Şərqdə gedən proseslər onu göstərir ki, dünya sivilizasiyasının bünövrəsini təşkil edən, millətlərarası münasibətlərə çox ciddi təsir göstərən qarşılıqlı hörmət anlayışı, tolerantlıq anlayışı aradan götürülüb, nəinki aradan götürülüb, hətta bir alət kimi istifadə olunur ki, milləti millətə qarşı qaldırsınlar və hansısa problemlər yaratsınlar.

"Bu baxımdan cənab Prezidentin 2016-cı ili "Multikulturalizm ili" elan etməsi bu proseslərə bir cavabdır. Azərbaycanda dinlərarası problem yoxdur, Azərbaycanda qarşılıqlı hörmət anlayışı əsasında fəaliyyət göstərən və yaşayan millətlər, insanlar mövcuddur.

Ölkəmizdə olan dəyərlər Qərb üçün də, Şərq üçün də vacib və çox əhəmiyyətli nümunədir və dünyaya bir mesajdır. Ən əsası isə respublikamızın regionda rolunu müəyyən edən bir amildir. Biz bir körpü kimi Şərqi də, Qərbi də özümüzdə birləşdirmək iqtidarındayıq.

Azərbaycan mədəniyyətlərin inteqrasiyası və tolerantlıq təcrübəsinə malik bir ölkədir, bu səbəbdən mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan ölkəmiz belə formatda tədbirlərin keçirilməsi üçün yetərincə münasib yerdir. Azərbaycan artıq dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük mərkəzlərindən birinə çevrilmişdir.

Artıq beynəlxalq ictimaiyyət də bunu qəbul edir, dəstəkləyir. Bir çox nüfuzlu beynəlxalq mədəniyyət və idman tədbirlərinin respublikamızda keçirilməsi bu fikri təsdiqləməklə yanaşı, həm də ölkəmizin inkişafından, dünyaya açıq olmasından xəbər verir. Bütün bunların məntiqi nəticəsi kimi, Azərbaycan sivilizasiyalararası qovuşma və multikulturalizmin nəzərə çarpan nümunəsi kimi dünyada tanınır.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır. Burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya edən müxtəlif xalqların nümayəndələri harmonik inkişaf yolundadırlar.

Vətənimizdə millətlərarası, dinlərarası münasibətlərin sağlam zəmində qurulması və dövlətin siyasi-iqtisadi və sosial həyatında müsbət nəticələrlə müşayiət olunması bu gün çox xarakterik bir göstəricidir. Belə ki, hər bir Azərbaycan vətəndaşı ölkəmizdə tarixən formalaşmış birgəyaşayış normasını xalqımızın milli-mənəvi dəyərlərinin ayrılmaz hissəsi sayır, dövlətçilik ənənələrimizdə multikulturalizmi təqdir edir. Digər tərəfdən bu xaraterik keyfiyyət, təbii ki, xalqımızın qədimdən milli eqoizmdən uzaq, bəşəri dəyərlərin daşıyıcısı olduğunu təsdiq edir. Təsadüfi deyil ki, Qarabağ uğrunda döyüşlərdə azərbaycanlılarla yanaşı, digər xalqların da övladları erməni işğalçılarına qarşı qəhrəmanlıqla döyüşmüşlər. Onlar Azərbaycanı Vətən bildikləri üçün onun uğrunda vuruşmuş, şəhid olmuşlar. Təbii ki, xalqımızın digər millətləri özündən ayırmaması, tolerantlığı, dözümlülüyü, onlara Azərbaycana həqiqi Vətən məhəbbəti bəxş etmişdir. Bu birlik dünyaya hazırkı gərgin beynəlxalq şəraitdə sivilizasiyalararası dialoq sahəsində münasibətlərə nümunə olacaq bir mesajdır.

Azərbaycan dövlətinin bu gün də öz vətəndaşlarına təlqin etdiyi humanizm və multikulturalizm yüksək, müasir dünyamız üçün çox vacib olan bəşəri keyfiyyət olmaqla yanaşı, ölkədə sosial-siyasi sabitliyin və iqtisadi inkişafın da ən mühüm amillərindəndir.

Ölkəmizdə multikulturalizmin dövlət siyasəti olması, Azərbaycan da mədəni müxtəlifliyin qorunmasında, xalqımızın əvəzsiz sərvəti olan multikulturalizm ənənələrinin dünyaya çatdırılmasında gənclərin xüsusi rolu var.

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan müxtəlif xalqların və etnik qrupların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı, sevinci və kədəri birgə bölüşdüyü bir məkandır. Burada yaşayan bütün xalqlar və etnik qruplar Azərbaycanı öz ortaq vətənlərinə çeviriblər.

**Əsgər GƏNCƏLİYEV,**
**II dərəcəli dövlət qulluqçusu**

*Əsgərə məktub*

# Qartal kimi vüqarlı, polad kimi əyilməz

Əziz əsgrlər, Vətən torpaqları bizlərə dədə-babalarımızdan əmanətdir. Biz bu əmanəti canımızdan da çox sevməli və sabahkı nəsillərə ötürməliyik. Yəni Vətənin daim var olmasını təmin etməliyik. Qoy bu ərazilər gələcək nəsillərin də Vətəni olsun, onlar yurdsuz, yuvasız qalmasınlar. Fikrimi hörmətli şairimiz Bəxtiyar Bahabzadənin bu mövzuda yazdığı misraları ilə davam etdirmək istərdim.

*...Yüz-yüz itən olsun,*
*Min-min də bitən var.*
*Şükr eləyirəm ki,*
*Bizdən həm əvvəl,*
*Həm də sonra Vətən var!*

Deməli, siz Vətənin varlığının, sabahının təminatçısınız. Onun keşikçisi, müdafiə edənisiniz.

İndiyə qədər "Vətən nədir?" sualına verilən cavabları bir-birinin ardınca yazmalı olsaq, yəqin ki, vərəqimiz tezliklə dolar. Bu günlərdə Gözəl adlı bir jurnalistin Vətən haqqında yazdığı məqalədə bu sözlər diqqətimi cəlb etdi: "Vətən torpaqla insan arasındakı sevgidir". Mənə elə gəlir ki, bu sözlər Vətən haqqında deyilən ən gözəl, ən dəqiq təriflərdən biridir. Torpaqla insan arasında olan bu sevgi əbədidir, heç vaxt tükənmir, bitmir. Nə qədər ki, yer üzündə insanlar var, bu sevgi heç vaxt tükənməyəcək. Deməli, hamımızın ürəyində Vətən eşqi, Vətən məhəbbəti çağladıqca çağlayacaq. Bizi torpağa, yurda bağlayan da məhz bu tükənməz sevgi və istəkdir.

Əziz əsgərlər, siz düşməni məhv etməyə, qələbə qazanmağa qadirsiniz. Sizin döyüş hazırlığınız da, mənəvi-psixoloji hazırlığınız da düşməndən qat-qat yüksəkdir. Silah-sursatınız, hərbi texnikanız daha müasirdir. Siz vətəndaşı olduğunuz ölkənizin torpaqları, doğma Qarabağ uğrunda vuruşacaqsınız. Deməli, haqq-ədalət də sizin tərəfinizdədir. Çünki düşmən tapdağı altında qalmış torpaqların əsl sahibi sizsiniz. O yerlər gəlişinizi gözləyir, o torpaqlar sizin çəkmələrinizin həsrətindədir.

Torpaqlarımız uğrunda elə vuruşun ki, qoy ellər sizin şərəfinizə nəğmələr qoşsun. Bilirəm ki, hər birinizin qəlbində qəhrəmanlıq, igidlik duyğuları cövlan edir. Döyüşlərdə qartal kimi vüqarlı, polad kimi əyilməz olun. "Ürəyi taqətdən düşməyən dizləri üstündə də vuruşacaq". Bu hikmət dolu sözlər görkəmli mütəfəkkir Şenaka məxsusdur. Arzulayıram ki, heç vaxt qollarınız taqətdən düşməsin, ürəyiniz döyündükcə döyünsün.

Yurdumuzu göz bəbəyiniz kimi qoruyun. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə torpaqlarımızı erməni işğalçılarından azad etməyə həmişə hazır olun. Daim uğurlara, qələbələrə köklənin.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

Baş leytenant Camalov Tacı Adil oğluna 2011-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Ələkbərov Zülfüqar Mahir oğluna 2015-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 79
Nüsxə 4700